## Yubileylər

**Elçin Mehrəliyev–70**

# Yazıçı… Publisist… Filoloq...

**Əlizadə Əsgərli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: alizade.asgerli@gmail.com

Yazıçı, publisist, filologiya elmləri doktoru, Azərbaycan Jurnalistlər Birliyi və Azərbaycan Yazıçılar Birliyinin üzvü Mehrəliyev Elçin Əli oğlu 18 may 1952-ci ildə Ağdam rayonunun Güllücə bölgəsində dünyaya gəlib.

1971-1976-cı illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. 1976-1991-ci illərdə "Azərbaycan gəncləri" qəzetində müxbir, şöbə müdiri, redaktor müavini, 1991-1992-ci illərdə Azərbaycan Respublikası Prezidenti Aparatında azərbaycandilli mətbuat üzrə bölmənin müdiri, Mətbuat xidməti rəhbərinin müavini, 1992-1993-cü illərdə "Yurd" jurnalı baş redaktorunun 1-ci müavini, 1993-2001-ci illərdə Azərbaycan Respublikası Milli Məclisində mətbuat katibi, spikerin köməkçisi, 2001-2004-cü illərdə "Maarifçi" qəzeti və "Advokat+" jurnalının baş redaktoru vəzifələrində işləyib.

2005-ci ildən AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışır. 2009-2015-ci illərdə həmin institutun Müasir Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri olub. 2015-ci ildən institutun Mətbuat tarixi və publisistika şöbəsində baş elmi işçi vəzifəsində çalışır.

Elçin müəllim "Oçerklər" (Ş.Yaqubovla həmmüəllif, Gənclik, 1978), "Vətən bizim şöhrətimiz" (Gənclik, 1980), "Talelərdə yaşayır" (Oskar, 2002), "Ölməzlik" (Spektr-Poliqraf, 2005), "Doktor Akif Abdullayev" (Oskar, 2006) adlı publisistik nəşrlərin müəllifidir. O, dövri mətbuatda yüzlərlə oçerk, müsahibə, reportaj janrlarında məqalələr dərc etdirib.

Elçin Mehrəliyev tanınmış yazıçıdır. O, "Təpəl quzu" (uşaqlar üçün nağıllar, hekayələr, Gənclik, 1982), "Pərvin" (povest və hekayələr, Gənclik, 1989), "İttiham" (roman, Yazıçı, 1991), "Hər kəs öz taleyini yaşayır" (pyeslər, hekayələr, məqalələr, Gənclik, 1998), "90-cı illər" (roman, Nurlan, 2004), "Tale döyüşü" (roman, Elm və təhsil, 2011), “Sirli təbiət, ağıllı canlılar” (sənədli hekayələr, Ekoprint, 2020) adlı bədii kitablarını çap etdirib. Müəllifin, ümumilikdə, 19 kitabı nəşr olunub. "Yurd yeri", "Məhəbbət qocalmır", "Çörəkli adam", "Qamış", "Təqib" kimi hekayə və pyesləri uzun illər radio və televiziya ilə nümayiş etdirilib.

Elçin Mehrəliyev, eyni zamanda tanınmış alimdir, filologiya elmləri doktorudur. O, "Müharibə və ədəbiyyat" (monoqrafiya, Azərnəşr, 2000), "İnsana poetik, publisistik və elmi baxış" (monoqrafiya, Günəş, 2001), "Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri" (monoqrafiya, Nurlan, 2008), "Qarabağ folklor mühiti: uzaq keçmişimizdən bugünümüzə qədər" (monoqrafiya, Nurlan, 2008), "Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu" (monoqrafiya, Nurlan, 2012), "Zaman və ədəbiyyat" (elmi məqalələr toplusu, MBM, 2009), ”Multikultural mühit və ədəbiyyat (müxtəlfliyin harmoniyası: həyatda və ədəbiyyatda)”, (monoqrafiya, Ekoprint, 2020) kitablarının müəllifidir.

E.Ə.Mehrəliyev 2001-ci ildə "Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı" mövzusunda filologiya üzrə fəlsəfə doktoru, 2012-ci ildə isə "Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu" mövzusunda filologiya elmlər doktoru alimlik dərəcələri alıb. Onun həyat və yaradıcılıq fəaliyyətindən bəhs edən "Soraq kitabçası" adlı monoqrafiya da nəşr edilib (Azərnəşr, 2002). Müəllif bə-

dii, publisistik və elmi yaradıcılığını hazırda davam etdirməkdədir.

O, "Qızıl qələm", "Nailiyyət", "Açıq söz" mükafatları laureatıdır.

Elçin Mehrəliyev Qarabağ mövzusu ilə bağlı tədqiqatlar aparıb, hekayə, povest və romanlar yazıb. 4 kitabı elmi problemlər mövzusundadır: "Müharibə və ədəbiyyat", "Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu", "Qarabağ folklor mühiti" və "Zaman və ədəbiyyat".

*"Müharibə və ədəbiyyat"* (/Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı/. "Bakı, Azərnəşr, 2000, 228 s.) 2000-ci ilin nəşridir. Redaktoru professor Şamil Salmanovdur. Monoqrafiyada erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarına təcavüzü və xalqımızın Qarabağ uğrunda ədalətli mübarizəsinin 90-cı illər ədəbiyyatımızdakı bədii inikası problemi tədqiq edilib.

Kitabın "Yaralı torpaq, ağrılı düşüncələr" hissəsi informativdir – müharibəni başlamağın nəqletmə təhkiyəsində ifadəsidir. Yazının məğzi "vətən də, millət də, dövlət də torpaqdan başlanır", "torpaqsız azadlıq, xoşbəxtlik yoxdur" tezisləridir.

"Qarabağ uğrunda müharibə və Azərbaycan ədəbiyyatı" adlı giriş publisistik təhkiyədədir. E.Mehrəliyev müharibənin kökləri və səbəblərini türk yox, rus mənbələri əsasında göstərib. Mətn-təhkiyə üçün fakt və informasiya – xatırlatma və şərh əsas olub.

E.Mehrəliyevin müəllif mətnində müharibəyə münasibətdə *poeziya və publisistika* öndə dayanıb. İlk əvvəl çağırış vətəni qorumağa, oğulları səfərbər etməyə *poeziyadan* edilib. 20 Yanvar – Qətl gecəsinin mahiyyəti söz işığında açılıb. E.Mehrəliyev sözü mənalandırıb – Söz qatı cinayət əməllərini ifşa edib.

Elçin Mehrəliyev *Lirika və Vətən müdafiəsinə çağırışı* B.Vahabzadənin "Azərbaycan əsgəri", "Bu ada qurban", M.Arazın "Ayağa dur, Azərbaycan", X.Rzanın "Məftillə sarınmış yaralar", "Hara gedir bu dünya", "Məndən başlanır vətən", "Davam edir 37", "Gəlir böyük Azərbaycan", habelə Famil Mehdi, Firuzə Məmmədlinin poeziyasında izləyib.

*Ağrılı, itkili mübarizəmizin vəsfi* – C.Novruzun "Özünü qoru, xalqım", "Daha dəhşət", "Geri torpaq almayacaq kimsə bizə", habelə M.Araz, M.Yaqub, F.Qoca, M.İsmayıl, Ə.Salahzadə, M.Aslan, T.Abdin, S.Qaraçöpün də poeziyasında ifadə olunub.

E.Mehrəliyevin izlədiyi bir ədəbi yön də *Tarixi hadisələr və epik janrla* bağlı olub. İ.İsmayılzadənin "Haran ağrıyır, Vətən?" poemasına daha çox diqqət yetirib: *"Biz nədən bu hala düşdük?"* Poeziyada buna cavab axtarıb. Nəticə də bundan ibarət olub: *"Qarabağdan əlini çək".* "Nə istəyir bu millət? – poetik sorğusunu da cavablandırıb*:"Azərbaycan dünyanın azadlıq meydanıdır".*

Müəllif *Müharibə və nəsrimiz* bölməsində Q.Kəngərlinin "Erməni lobbisi", "Azərbaycan faciəsi", İ.Vəliyevin "Dünya susur, tarix susmur","Qaçqınlar","Burulğanlar içində", "Qara gündəlik" və s.əsərlərini xatırladıb.

*Sənədli hekayə və povestlər* bölümündə isə Sabir Əhmədlinin "Axirət sevdası",V.Babanlının "Ana intiqamı" povestini, F.Süleymanovun "Qana boyanmış Quran", "Ana gördüm gözü yaşlı", İnqilab Vəlizadənin "Qanlı yanvar", Rəşid Faxralının "Diqqət, diqqət" əsərlərini ilkin bədii mətn sıralarında göstərib.

Sabir Əhmədlinin "Axirət sevdası", Anarın "Otel otağı", İ.Məlikzadənin "Məndən nigaran qalmayın", F.Mustafanın "Uçurum", "Dinozavr kölgəsi" əsərləri bir qədər geniş plandadır. Tədqiqatın informativlik yükü çəkilidir.

*"Müharibə və müasir ədəbiyyatın bəzi məsələləri"* bölümündə Ə.Məmmədxanlının "Babək", A.Abbasın "Batmanqılınc", M.Orucun "Köçürülmə", M.Çəmənlinin "Xallı Gürzə" əsərləri təhlil predmeti olub.

Tədqiqatçının qənaətinə görə, *Ədəbiyyatda qəhrəmanı göstərmək amili* meyil olaraq təzahür edib. Anarın "Otel otağı"nda, Ə.Əmirlinin "Meydan" romanında cəbhə gerçəkləri yox, Qarabağı itirməkdən doğan kədər ifadə olunub. Bunlar müharibə mövzusunda yazılanlar yox, mövcud əhvali-ruhiyyəni əks etdirən əsərlər olub. Nahid Hacızadənin isə "Qisas qiyamətə qalmaz" pyesində müharibə epizodları yox, müharibə gerçəklikləri, insanların müharibə şəraitindəki mövqeyi göstərilib. Bunlarda hələ *Əsgər obrazları* yoxdur, arxa cəbhədəki kədərin ifadəsi görünüb. "Yurd yerində" pyesində nəsillər arasındakı ziddiyyətlər önə çəkilib. "Dağıl,

dünya, dağıl", "Biz kimik", "Qaçqın" əsərləri üçün emosiya əsas olub.

E.Mehrəliyev dünya yalan üzərində qurulub məntiqinə qarşı bədii əsərlərin ifadə etdiyi *Dünya həqiqət üzərində, halallıq üstündə qurulub?* ideya-məzmunu arqument göstərib, *Ruh hələ qırılmayıb?* məntiqini aşıladıb. "Biz hara gedirik" sualı ətrafında *bədii cavablandırma isə hələ yetərli deyil?* qənaətini ifadə edib.

Tədqiqatda *Türk tarixçiliyi və dövlətçiliyi* mövzusunda B.Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər") dramı milli dövlətçiliyin qüvvətləndirilməsi, müharibə qələbəsinin mənəvi şərti kimi təhlil edilib. Müəllifə görə, B.Vahabzadə "mənəvi psixoloji mövzuları, xarakter və problemləri" uzun müddət dramaturgiyasında inikas etdirib. "Özümüzü kəsən qılınc"da eramızın 600-cü ilində Çinin dağıtdığı Göytürk xaqanlığının *istiqlal uğrunda mübarizəsi* göstərilib. Müəllif belə bir mətn məzmunu verib: 1300 ildən əvvəl Mete xaqan Göytürk xaqanlığının əsasını qoyub, oğlu Çilo xan da dövlətçilik ənənələrini davam etdirib. Çilo xan ölmüş, hakimiyyətini Qara xan zəbt etmişdir. Qara xan onun oğulları Dulu xanı və Gürşad xanı da zərərsizləşdirmək planı qurur. Hakimiyyət çəkişmələrinə Çin xaqanının qızı Çilo xanın, sonra Qara xanın arvadı İçken xatun başçılıq edir. Çilo xanın varisliyi böyük qardaşa yox, kiçik qardaş Gürşada vəsiyyət ediləndə hakimiyyət hərisi Dulu xan qardaşına qarşı qalxır. Gürşad isə dövlətçilik uğrunda mübarizə aparır. "Nəhayət, günah və xəyanətlərini dərk edən Dulu xan babası Mete xandan, atasından qalan dövlətçilik qılıncını onu qəbul etməkdən imtina edən Gürşad xanın beş yaşlı oğluna təhvil verir" [s.201].

Alim İ.Əfəndiyevin "Hökmdar və qızı" pyesi haqqında danışarkən, yaxın tariximizdən Qarabağın taleyini, mübarizə və hərəkatımızı faktoloji material əsasında səciyyələndirib. İbrahim xan faciələrimizin, siyasi hadisələrin qurbanı kimi fərdiləşdirilib. B.Vahabzadə, N.Xəzri, C.Novruz, F.Qoca, F.Mehdi, F.Sadıq, Ç.Əlioğlu da şeirlərində "niyə biz belə olduq" siyasi-psixoloji düşüncəsinə dalıb.

Nemət Veysəllinin "Haran ağrıyır, Vətən" (1999) adlı publisistik kitabı, Saleh Bəyin "Əllər", B.Məhərrəmovun "Yarımçıq qalmış döyüşçü gündəliyi", "Səngərdə yazılmış sətirlər" *gündəlikləri* də vardır. Müəllif qənaətləri bu olub ki, Qarabağ mübarizəsi ədəbiyyatımıza əhəmiyyətli təsir göstərib, müharibə Vətən müharibəsi kimi başa düşülüb, ədəbi fikrimizin əsas ideyası-məzmunu olub. Müharibənin bədii-fəlsəfi və ümumbəşər problematikası müəyyənləşdirilib.

E.Mehrəliyev tədqiq etdiyi problemi zaman keçdikcə dərinləşdirib və *"Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu: ideya və sənətkarlıq məsələləri"* adlı monoqrafiyasını çap etdirib (Bakı, Nurlan, 2008, 324 s.).

*I fəsildə* mövzunun təşəkkül tarixi və inkişaf mərhələləri, yəni Qarabağla bağlı şifahi və yazılı nümunələrin təşəkkülü, Qarabağ folklor mühiti, habelə XVIII-XIX əsrlərdə və XX əsrin əvvəllərində Qarabağdakı ictimai-siyasi hadisələrin ədəbiyyatdakı əksi, sovet dönəmindəki Qarabağ və ədavətə təhrik meyilləri, ədəbiyyatımızda Qarabağ mövzusu konkret öyrənilib. *II fəsildə* işğalçı erməni siyasəti və ədəbiyyatımızın təzahür xüsusiyyətləri: milli səfərbərlik ruhunun ifadəsi, faciəvi hadisələrin bədii-publisistik əksi ifadəsini tapıb. *III fəsildə* Qarabağ uğrunda ədalətli mübarizəmizin ədəbiyyat cəbhəsindən: dramlarımızın tarixiliklə müasirlik vəhdətindən, hekayə, povest və roman janrlarının bədii xüsusiyyətlərindən söz açılıb. Monoqrafiyada müəllif qənaəti belədir ki, Qarabağ mövzusunun milli ədəbiyyatımızdakı təşəkkül tarixi uzaq keçmişimizə, qədim mədəniyyətimizə aiddir. Qarabağ folklor nümunələrindən gəlib, türk milli ruhu və mənliyi – milli kolorit onun ayrılmaz tərkib hissəsi olub.

E.Mehrəliyev ədəbi-tarixi proses olaraq XIX əsrdən başlayaraq Qarabağ hadisələrinin tarixi mərhələlərini ayırıb, 1905-1907, 1917-1918-ci illər sovet dövrünü nəzərə alıb, 1988-1990-cı illərin *milli-azadlıq hərəkatının təşəkkülü və dinamikasını* izləyib, təcavüzə qarşı ədəbiyyatımızın da mübarizə əks-sədasını ifadə edib: "Qarabağ mövzusu ədəbiyyatımızda aparıcı mövqeyə çıxmış, onun ideya istiqamətini gücləndirmiş, xalqın, vətənin nicatı, əbədiliyi bədii fikrin mühüm amilinə yüksəlməsinə səbəb olmuşdur" [s.307]. Alim əsaslandırıb ki, Qarabağ hadisələrinə müraciət *publisistika janrından* başlayıb, baş verənlər təhlil olunub, əsas xüsu-

siyyətləri qeydə alınıb. Oçerk, müsahibə, gündəlik, məktub, memuar, sənədli hekayə başlıca janrları olub.

*Poeziyada* milli azadlıq uğrunda mübarizə, səfərbərliyə çağırış ruhu ifadə olunub.

Hekayələrimizdə milli azadlıq uğrunda mübarizə, səfərbərliyə çağırış ruhu, *hekayələrimizdə* milli mənəviyyata vurulmuş zərbələr, torpaq dərdi, insan məhrumiyyətləri, hüquq və azadlıqlarının tapdanması ifadə olunub. *Qaçqınlıq* problemi, *yurd-yurddaş, etnos-xalq, ailə taleləri, iztirabları* təsvir-ifadə predmeti götürülüb.

*Povest və romanlardakı* dramatizm, süjet xəttindəki, hadisələrdəki oxşarlar, avtobioqrafizm, problematika məsələləri izlənilib. *Epik poemalarda* da tarixi hadisələrin əks-sədası və janrın imkanları göstərilib, qəhrəman döyüşçülərin və düşmən obrazların təhlili verilib.

Müəllif *IV fəsli* Qarabağ mövzusunda yazılmış əsərlərin sənətkarlığına: dil və üslub, məcazlar sisteminə, bədii struktur məsələləri və folklor motivlərinə həsr edib. Nəticədə, sosial, siyasi, əxlaqi, mənəvi, fəlsəfi, etik və estetik yönlü nümunələrin məğzini ümumiləşdirib.

E.Mehrəliyev bu kitabında Qarabağ folklorunun tədqiqi məsələsini qaldırıb, onu özü də *"Qarabağ folklor mühiti (uzaq tarixdən bu günümüzə qədər)"* adlı monoqrafiyasında (Bakı, "Nurlan", 2008, 228 s., redaktoru və ön sözü Ə.R.Xələfli, rəyçisi M.Qasımlıdır) yerinə yetirib. Kitabda Qarabağ folklor mühitinin regional özünəməxsusluğu, etnosun şifahi yaradıcılıq ənənələri tədqiq edilib.

Kitab giriş və 4 bölmədən ibarətdir. Müəllif *I bölmədə* Qarabağ ağız ədəbiyyatı nümunələri, folklor mühitinin təşəkkülü və formalaşması tarixini tədqiq edib (C.Hacıbəylinin Azərbaycan folkloru antologiyası, ("Qarabağ folkloru" /2000/, Qarabağın dialekti və folkloru və s.). *II bölmədə* Qarabağ folklor mühitinin regional xüsusiyyətləri öyrənilib. Bu bölmədə Qarabağ folklor yaradıcılığındakı regionun coğrafi mənzərəsi, fauna və florası, həyat və məişətinin spesifik xüsusiyyətləri, lirik, epik, lirik-epik nümunələri yalnız linqvistik planda yox, dil-semantika, ifadə-ləhcə xüsusiyyətləri ilə də deyil, həm də onlar arasındakı ideya-estetik əlaqə, süjet və kompozisiyada əksini tapıb. Müəllif yazır ki, "Qarabağda şifahi xalq yaradıcılığı poetik zövq və idrakın ilk rüşeymində gedən və tədricən inkişaf edən mürəkkəb bir prosesi əks etdirib" [s.224].

Kitabda Qarabağ folklor ənənələrinin lətifə, gülməcə, elat dodaqqaçdı yaradıcılığı, zərif yumor, kəsərli satira janrları da işlənib, nərmə-nazik bayatılara da ayrıca bölmə verilib. E.Mehrəliyev qeyd edir ki, "Qarabağ bayatı yaradıcılığında ənənəvi forma və məzmun vəhdətinin qorunub saxlanması folklor mühitinin təbii-tarixi xüsusiyyətlərindən biri kimi çıxış edib" [s.154]. Bayatılarda Qarabağın dağı, aranı, yaylası, sakinlərin həyat və məişəti, köçəri, yarımköçəri və oturaq həyat tərzi ifadə olunub. Bu bayatılarda ermənilərin azərbaycanlılara qəsdi və xəyanətləri də ifadəsini tapıb.

*Qarabağın dağı var,*
*Getmə, yolda yağı var.*
*Dindirməyin ağlaram,*
*Məndə qardaş dağı var.*

Kitabın "Ozan-aşıq diyarı, sazın hanı, sözün hanı" bölməsində Qarabağ mühitində aşıqlığın XVI-XVIII əsrlərdə çiçəkləndiyi dərin irfani-estetik kökləri, təriqət ənənələrinə bağlılığı, aşıq məktəbləri qeyd olunub. Sarı Aşıq, Dirili Qurbani, Aşıq Məhərrəm, Aşıq Valeh, Aşıq Abbas Tufaqqanlı, Dədə Şəmşir, Aşıq Sübhan, Aşıq Pəri, Aşıq Bəsti Qarabağ aşıq mühitinin yetirmələri kimi xüsusi qeyd olunub.

Elçin Mehrəliyev kitabın *III bölməsini* "Böyük Qarabağ epos və dastanlarımızda" adlandırıb. Bu bölmədə "Kitabi Dədə Qorqud" dastanlarında əksini tapmış Qarabağ yurd yerləri və onların sakinlərinin həyat tərzindən, Dərbənd, Bərdə, Gəncə, Gürcüstan ağzı, Dərəşam, Sürməli, Göyçə, Əlincə, Qaraçuq, Ağcaqaya, Qaradağ, Aladağ, Qazılıq dağı, digər yer-yurd adlarının Qarabağla, Qarabağ ətrafı ərazilərlə bağlılığı qeyd edilib.

"İstiqlal poeziyası" adlı fəsildə müəllif B.Vahabzadə, X.Rza, Qabil, S.Rüstəmxanlı və M.Araz, eləcə də Naxçıvan şairlərindən A.Yadigar, V.Məmmədov, A.Qurbani, Ə.Ərəfsəli, E.Yurdoğlu poeziyasını təhlil edib. *III fəsildə* ("Bədii yaradıcılıq platforması") Mənzər Nigarlı, Bahar Bərdəli, Şövkət Horovlu və başqalarının əsərləri təhlil predmeti götürülüb, hətta

Naxçıvan qalaları mövzusu da poeziyada izlənilib.

*"Müasir Azərbaycan poeziyasında Qarabağ"* monoqrafiyası 2019-cu ilin nəşri (Bakı, Ekoprint, 2019, 304 s.) olub, elmi redaktoru professor A.Rüstəmli, rəyçiləri professor N.Məmmədov və professor M.Quliyevadır. Kitab 3 fəsildən ibarətdir.

"Qarabağ mövzusunun poeziyada inikası və ədəbiyyatşünaslıqda tədqiqat istiqamətləri" adlanan *I fəsildə* Qarabağın ədəbi-tarixi aspektləri, poeziyada problemin qoyuluşu və təkamül prosesləri, 1990-cı illər poeziyasının spesifikası öyrənilib. *II fəsil* özündə Qarabağ mövzusunda lirikanı, yəni şəhidlik və humanizm məsələlərini ehtiva edib.

E.Mehrəliyev "Koroğlu dövranı – Qarabağın növrağı" məqaləsində xatırladıb ki, Çənlibel və onun Koroğlusu Qafqazla, bilavasitə Qarabağla əlaqəlidir. O, mətnlərə istinad edərək göstərib ki, Çənlibel Qarabağın Aran əhalisinin hər yay üz tutduğu Kiçik Qafqaz dağlarında, indiki Kəlbəcər yaylaqları olub. Monoqrafiyanın "Mahmud və Məryəm", "Əsli və Kərəm" hissəsində alim dastanın ikinci adına üstünlük verib.

Tədqiqatın mətn təhkiyəsi publisitika ilə daha geniş ehtiva olunub, mətnlərin adlarında belə publisistik çağırışlar edilib. Məsələn, "Haradasan, yaman günün Nəbisi" və s. yazıda mahiyyət budur ki, ermənilərin ərazi iddiası, folklorumuzda erməniçilik ünsürlərinin olması uydurmadır. Qaçaq Nəbi də yalnız Qarabağda yox, Ermənistan, Gürcüstan, İran və Dağıstanda dinc, zəhmətkeş insanlar üçün mübarizə aparıb.

Kitabın "Qarabağa təcavüz xalqımızın maddi-mənəvi mədəniyyət abidələrinə qəsddən başlandı" adlı IV bölümündə müəllif tarixi həqiqətləri təhrif edən, dəyişən, o cümlədən Albaniya-Aran-Qarabağ tarixini saxtalaşdıranlara qarşı mövqe ifadə edib, qədim maddi mədəniyyət abidələrini məhv etdiklərini, öz adlarına çıxdıqlarını, musiqi mədəniyyətimizə şərik olduqlarını, onları erməniləşdirdiklərini klassik faktlar əsasında şərh etməyə çalışıb. Sənətkarlarımıza böhtan atıb, milli məişətimizə şərik çıxıb, xalılarımızı və digər folklor nümunələrimizi öz adlarına yazıb.

Elçin Mehrəiyevin *"Zaman və ədəbiyyat"* kitabı 2009-cu ildə nəşr olunub. Ktiabda müxtəlif dövrlərdə yaşayıb yaradan ədəbi nəsillərin yaradıcılığından bəhs edilib, müasir ədəbi proses izlənilib, Qarabağ hadisələrinin ədəbiyyatımıza təsiri aydınlaşdırılıb. Məqalələr toplusunda "Sözün bədii ləyaqəti haqqında" adlı ön söz və beş bölmə verilib, yəni I-də Qarabağ ovqatı, II-də poeziya, III-də tənqid nümunələri, IV-də ədəbi əlaqələr, V-də klassiklərimiz haqqında yazılar verilib.

Müəllif *I bölümdəki* məqalələri Qarabağa həsr edib. Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunun təşəkkül tarixi və inkişaf mərhələlərindən, bədii nəsrimizin Qarabağla bağlı durğunluğu və canlanma səbəblərinin faktoloji-publisistik mənbələrindən, təcavüz əsasında baş verən faciəvi hadisələrin sənədli bədii təcəssümündən, Famil Mehdi şeirinin səfərbərlik harayı, Elçinin "Qarabağ şikəstəsi", Ə.Hacızadənin "Zəlzələ", "İtin sədaqəti", Aygün Həsənoğlunun "Səhv", "Lənət", Rasətin "Qoxu", Əlabbasın "Halal qan" hekayəsinin ideya-məzmunundan, M.Süleymanlının "Erməni adındakı hərflər", A.Abbasın "Dolu" romanlarından, Mənzər Niyarlının 7 hekayədən ibarət "Həmin axşam" kitabından, Y.Nəğməkarın "Zal ağacı" lirik-epik poemasından bəhs edib. "Hökmən qətlə yetirməli" məqaləsində N.Nərimanovun Qarabağ vilayəti ilə bağlı Leninə etirazlarını, "Qarabağ münaqişəsi və Azərbaycan ədəbiyyatının dinc birgə yaşayışa çağırış mövqeyi" adlı məqaləsində Qarabağ mövzusuna baxışın bədii-publisistik şərhini verib...

Tanınmış ziyalı, filologiya elmləri doktoru, baş elmi işçi, hörmətli Elçin Mehrəliyevi 70 illik yubileyi münasibətilə institut kollektivi adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.